06 (1363) 13-19 fevral 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda olarkən Çinin CGTN telekanalına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi fevralın 11-də bu televiziya kanalında yayımlanıb.***

## “CƏNUBİ QAFQAZ VƏ XƏZƏR REGİONUNDA ETİBARLI MÖVQE TUTMUŞUQ”

“Biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq”.

Bu barədə Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib.

Milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə edib çoxlu uğur qazandığımızı vurğulayan dövlətimizin başçısı deyib: **“Mən deyərdim ki, dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz”.**

## “QLOBAL CƏNUB DÜNYANIN ƏN ZƏNGİN ÖLKƏLƏRİNDƏN DAHA ÇOX DƏSTƏK GÖZLƏYİR”



“Bakıda keçirilən COP29-da ən mühüm tədbirlərdən biri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü idi. Orada Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü”.

Bu barədə Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib.

Dövlətimizin başçısı qeyd edib: **“Aydın məsələdir ki, böyük aktorların birgə yanaşması olmadan həmin ölkələri və iqlim məsələləri ilə məşğul olmaq üçün maddi ehtiyatları olmayan ölkələri dəstəkləmək çətin olacaq. Düşünürəm ki, üzərinə bu yükü götürən ölkələrin məsuliyyəti daha çox iş görməkdir. Qlobal Cənub tamamilə obyektiv olaraq dünyanın ən zəngin ölkələrindən daha çox dəstək gözləyir”.**

## “ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNDƏ İTİRİLMİŞ İLLƏR HESAB ETDİYİMİZ 4 İL ARTIQ TARİXƏ QOVUŞACAQ”

“Biz Prezident Trampın ABŞ-a rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi”.

Bu fikri Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində səsləndirib.

Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmizin çox müsbət olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ***“Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq”.***

## SOMALİ FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ AZƏRBAYCANDA SƏFƏRDƏDİR



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi olub.

Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub.

Sonra Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.

Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud mətbuata bəyanatlarla çıxış ediblər.

## “AZƏRBAYCAN RESPUBLİKASINDA 2025-Cİ İLİN “KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ” ELAN EDİLMƏSİ TƏSDİQLƏNDİ




Prezident İlham Əliyev “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Trend xəbər verir ki, sərəncama əsasən, “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilib.

Bu sərəncamla təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## “ÇİN İLƏ TƏRƏFDAŞLIĞIMIZIN GENİŞLƏNDİRİLMƏSİNİ ARZULAYIRIQ”

“Bildiyiniz kimi, ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır”. Bu fikirləri Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində səsləndirib. **“Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq”**, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “BƏZİ QƏRB LİDERLƏRİ PREZİDENT TRAMPA QARŞI ÇOX ƏDALƏTSİZ İDİLƏR”

“Avropa liderləri arasında (Prezident Trampla bağlı – red.) ciddi qeyri-müəyyənlik və deyərdim, ciddi narahatlıq var. Səbəbi isə çox sadədir. Biz hamımız onların bəzilərinin son 4 ildə cənab Tramp prezident olmadığı dövrdə ona necə münasibət göstərdiyini bilirik. Artıq mən deyərdim, ilk diskvalifikasiya var. Bu, Kanadanın Baş naziridir”.

Bu fikirləri Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində ifadə edib.

***“Bəzi Qərb liderləri Prezident Trampa qarşı çox ədalətsiz idilər və sözsüz ki, onlar narahatdırlar, indi onların buna görə cavabdeh olmasının vaxtı gəlib çatıb”***, - deyən dövlətimizin başçısı bunun onun fikri olduğunu, ABŞ-da dəyişikliklə bağlı narahat olmaq üçün başqa ciddi səbəb görmədiyini vurğulayıb.

## İLHAM ƏLİYEV: “HƏMİŞƏ HƏQİQƏTİ SÖYLƏYİN”

Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibəsində çox sürətlə dəyişən dünyada liderliklə bağlı fikirlərini bölüşüb.

Liderliyin böyük bir məsuliyyət olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ***“Ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək.***

***Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır”.***

Prezident ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə də məsləhət verərək deyib: ***“Həmişə həqiqəti söyləyin və ölkəniz üçün doğru olanı edin”.***

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi olub.

Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub.

Fevralın 12-də Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.

Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud mətbuata bəyanatlarla çıxış ediblər.

## “ŞİMAL-CƏNUB” DƏHLİZİ ÇƏRÇİVƏSİNDƏ SAZİŞ TƏSDİQLƏNDİ

“Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş” təsdiqlənib.

Bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb.

Fərmana əsasən, Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərməlidir.

## AZƏRBAYCANLA İRAN ARASINDA TİCARƏT DÖVRİYYƏSİ 33%-Ə YAXIN ARTIB

Ötən il Azərbaycanla İran İslam Respublikası arasında ticarət əməliyyatlarının həcmi 647 milyon ABŞ dolları təşkil edib.

Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.

Məlumata görə, bu, 2023-cü ildəki göstərici ilə müqayisədə 159,7 milyon ABŞ dolları və ya 32,8% çoxdur.

Hesabat dövründə İran İslam Respublikası ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1,3%-i həcmində olub.

Ötən il Azərbaycan İrana 14 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib ki, bu da 2023-cü ildəki göstəriciyə nisbətən 299 min ABŞ dolları və ya 2,1% azdır. Dövr ərzində İran ilə ixrac əməliyyatları ölkənin ümumi ixracının 0,05%-ni təşkil edib.

2024-cü ildə Azərbaycan İrandan məhsul idxalını illik müqayisədə 160 milyon ABŞ dolları və ya 33,8% artıraraq, 633 milyon ABŞ dollarına çatdırıb. Dövr ərzində İran ilə idxal əməliyyatları ölkənin ümumi idxalının 3,01%-ni təşkil edib.

Qeyd edək ki, 2024-cü il ərzində Azərbaycan xarici ölkələrlə (180 ölkə) 47,6 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Məlumata görə, bu, 2023-cü ilə nisbətən 3,6 milyard ABŞ dolları və ya 7% azdır.

Xarici ticarət dövriyyəsinin 26,5 milyard ABŞ dolları ixracın, 2,6 milyard ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 7,3 milyard ABŞ dolları və ya 21,7% azalıb, idxal isə 3,8 milyard ABŞ dolları və ya 21,8% artıb. Nəticə etibarilə xarici ticarətdə 5,5 milyard ABŞ dolları həcmində müsbət saldo yaranıb. Bu da illik müqayisədə 3 dəfə azdır.



# Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndi şəhərində keçirilib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xankəndi şəhərində Qərargahın növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işlərinin geniş vüsət aldığını qeyd edib. Dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən irimiqyaslı layihələr çərçivəsində müasir infrastruktur qurulur, keçmiş məcburi köçkünlərin rahat şəkildə öz yurdlarına qayıtmaları və məskunlaşmaları üçün yaşayış məntəqələri salınır, ərazilərdə zəruri şərait yaradılır.

Dövlətimizin başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın milli prioritetlərdən biri kimi müəyyən edildiyi, bu sahədə görülən işlərin daim nəzarətdə saxlanıldığı iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər barədə məlumatlar təqdim olunub.

# Türkiyədən Azərbaycana elektrik avadanlıqlarının ixracı artıb

Türkiyə 2025-ci ilin yanvar ayında Azərbaycana elektrik avadanlıqlarının ixracını 2024-cü ilin eyni dövrü ilə müqayisədə 10,6 faiz artıraraq 17 milyon 535 min 26 dollara çatdırıb.

Bu barədə TurkicWorld-ə Türkiyə Ticarət Nazirliyindən məlumat verilib.

Nazirlikdən onu da bildiriblər ki, son 12 ay ərzində (yanvar 2025 - yanvar 2024) Türkiyə 16 milyon 688 min 132 dollar məbləğində elektrik avadanlıqları ixrac edib.

Qeyd edək ki, 2025-ci ilin yanvar ayında Türkiyənin dünya bazarlarına elektrik avadanlıqları ixracı 2024-cü ilin eyni ayı ilə müqayisədə 1,4 faiz artaraq, 1 milyon 224 min 867 dollara bərabər olub. Keçən ilin yanvar-dekabr aylarında Türkiyənin dünya bazarlarına elektrik avadanlıqları ixracı 2023-cü ilin eyni ayı ilə müqayisədə 2,9 faiz artaraq, 16 milyard 677 milyon 730 min dollara bərabər olub.

# Mərkəzi Bank rəqəmsal manatın təhlükəsizliyini təmin etmək üçün strategiyalarını açıqlayıb

Mərkəzi Bank rəqəmsal manatın təhlükəsizliyini təmin etmək üçün bir neçə strategiya nəzərdə tutur.

Bu barədə Trend-in sorğusuna cavab olaraq Mərkəzi Bankdan bildirilib.

"Rəqəmsal manatın təhlükəsizliyini təmin etmək üçün vacib strategiyalardan biri rəqəmsal manatın bütün əməliyyatları yüksək səviyyəli şifrələmə metodları ilə qorunmasıdır. Bununla yanaşı, iki və üçmərhələli autentifikasiya, biometrik təsdiq və elektron imza texnologiyalarından istifadə olunacaq. Maliyyə əməliyyatlarının təhlükəsizliyi üçün real vaxt rejimində nəzarət və monitorinq mexanizmləri fəaliyyət göstərəcək. Potensial təhdidlərin proqnozlaşdırılması və vaxtında qarşısının alınması üçün qabaqcıl texnoloji həllər tətbiq ediləcək", - deyə Mərkəzi Bankdan bildiriblər.

Qeyd edilib ki, DDoS hücumları və digər kiber risklərə qarşı müstəqil təhlükəsizlik infrastrukturunun yaradılması nəzərdə tutulur: ***"İstifadəçilərin rəqəmsal cüzdanlarının qorunması və kiberhücum nəticəsində mümkün itkilərin kompensasiya olunması üçün maliyyə təhlükəsizliyi sistemləri formalaşdırılacaq".***

# Vergi xəbərləri

***Güzəştli vergi tutulan ərazilərdən xidmət alınan zaman vergi hansı məbləğdən hesablanmalıdır?***

Vergi Məcəlləsinin 125-1-ci maddəsinə əsasən, güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə və güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlərin ödəmə mənbəyində vergiyə cəlb olunması belə müəyyən edilib: ***Vergi Məcəlləsinin digər müddəalarından asılı olmayaraq, bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələrdən ödəmə mənbəyində 10% dərəcə ilə vergi tutulur. Bəs həmin vergi ilkin məbləğdən, yoxsa Məcəllənin digər tələbləri ilə 10% vergi tutulduqdan sonra qalan məbləğdən tutulmalıdırmı?***

Suala iqtisadçı ekspert Anar Bayramov nümunələr əsasında aydınlıq gətirir:

Tutaq ki, Azərbaycan rezident şirkəti Bakı şəhərində tikiləcək inzibati bina üçün beynəlxalq şirkətdən 100.000 ABŞ dolları dəyərində layihə-dizayn xidməti alır. Qeyri-rezidentin Azərbaycan şirkətinə göstərdiyi bu xidmətə görə əldə etdiyi gəlir Vergi Məcəlləsinin 13.2.16.18-ci maddəsinə görə Azərbaycan mənbəyindən əldə edilmiş gəlirdir. Belə olduğu təqdirdə, bu gəlir Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinə əsasən 10% dərəcəsi ilə ödəmə mənbəyində vergiyə cəlb edilir. Yəni, Azərbaycan şirkəti qeyri-rezidentin 100.000 USD gəlirindən 10.000 USD vergi tutaraq büdcəyə ödəyir:

**100.000 x 10% = 10000 USD.**

Həmçinin, məlum olur ki, qeyri-rezident şirkət Honkonqda qeydiyyatdan keçib və şirkətin bank hesabı da Honkonqdadır. Belə olan təqdirdə, Vergi Məcəlləsinin 125-1-ci maddəsinə əsasən, qeyri-rezidentin gəlirindən əlavə olaraq 10% dərəcəsi ilə vergi tutulub büdcəyə ödənilməlidir.

Lakin burada xüsusi olaraq diqqət edilməli məqam var. Güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə ödənişlər aparılarkən Vergi Məcəlləsinin 125-1-ci maddəsinə əsasən, 10% ödəmə mənbəyində vergi müqavilə üzrə xidmətlərin ümumi dəyəri olan 100.000 USD-dən tutulmalıdır, yoxsa Məcəllənin 125.1.5-ci maddəsinə uyğun olaraq 10% ödəmə mənbəyində vergi tutulduqdan sonra qeyri-rezidentə köçürüləcək qalıq məbləğ 90.000 USD-dən tutulmalıdır?

Cavab olaraq bildirmək istəyirik ki, birmənalı olaraq ofşor ərazilərə ödəniş edilərkən ödəmə mənbəyində vergi Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinə əsasən, 10% dərəcəsi ilə ödəmə mənbəyində vergi tutulduqdan sonra qeyri-rezidentə köçürüləcək 90.000 USD-dən tutulmalıdır. Çünki Vergi Məcəlləsinin 13.2.16.14-1-ci və 125-1-ci maddələrində qeyd edilir ki, güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) vergi ödəyicilərinə, güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlər ödəmə mənbəyində vergiyə cəlb edilir.

Fərz edək ki, qeyri-rezident şirkət Türkiyədə qeydiyyatdan keçib. Türkiyə şirkəti tələb edir ki, Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinə əsasən, 10.000 USD ekvivalentində vergi tutulduqdan sonra qalan 90.000 USD məbləğin 85.000 USD məbləğində hissəsi Türkiyədə yerləşən bank hesabına, 5.000 USD məbləğində hissəsi isə Honkonqda yerləşən bankdakı hesabına köçürülsün. Belə olan təqdirdə, Vergi Məcəlləsinin 125-1-ci maddəsinə əsasən, 10% dərəcəsi ilə ödəmə mənbəyində vergi ümumi müqavilə üzrə xidmətin dəyəri olan 100.000 USD məbləğindən deyil, faktiki olaraq Honkonqa köçürülən 5.000 USD məbləğdən 500 USD ekvivalenti kimi tutulub büdcəyə ödənilməlidir:

**5000 x 10% = 500 USD.**

**Mənbə: vergiler.az**

# DİN kiber talamalar üzrə vəziyyəti açıqladı: "Hər bir vətəndaş diqqətli olmalıdır"

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, 2024-cü ildə vətəndaşların xarici kiber müdaxilələrlə 16 min 804 fakt üzrə aldadılaraq bank kartlarından 22 milyon (22.442.838) manatdan artıq vəsait talanıb.

İnternet resurslarında vətəndaşları aldatmaqla, lotereya, qumar oyunları və digərlərində qazanc əldə edəcəyi vədi ilə müxtəlif məbləğlərdə pul vəsaitləri xaricdən idarə olunmaqla başqa-başqa xarici hesablara köçürülüb.

Hər bir fakt üzrə aparılan təhlillər və araşdırmalar göstərir ki, aşkar bilinən kiber talama cinayətləri vətəndaşın bank kartına aid şəxsi məlumatların xaricdə olan naməlum şəxslər tərəfindən ələ keçirilməsi nəticəsində baş verib.

Bu günlərdə sosial şəbəkələrdə onlayn qumar təşkil edən daha bir dəstə ifşa olunub. Daxili İşlər Nazirliyinin (DİN) Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi sosial şəbəkələrdə onlayn qumar oyunları təşkil edən daha bir mütəşəkkil dəstənin üzvlərinin ifşası məqsədi ilə xüsusi əməliyyat keçirib. Baş İdarədə hazırlanan xüsusi əməliyyat-texniki tədbirlərlə dəstəyə başçılıq edən şəxslər saxlanılaraq məsuliyyətə cəlb olunublar. Əməliyyat tədbirləri davam etdirilir.

P.S. Müqəddəs kitabımız Qurani Kərimdə deyilir: "Ey iman gətirənlər! Həqiqətən, şərab, qumar, bütlər, püşk oxları çirkin, şeytani işlərdəndir. Onlardan çəkinin ki, bəlkə nicat tapasınız!" (Maidə" surəsi, 90-cı ayə).

Çox təəssüf ki, son aylar ölkəmizdə onlayn qumar oyunları yayılmaqdadır. Hansı sayta, hansı səhifəyə daxil olsan, sistem tərəfindən qarşımıza çıxarılan müxtəlif onlayn qumar oyunları zəhmətsiz pul qazanmaq istəyən şəxslərin, xüsusilə də gənclərin diqqətini çəkir. Belə oyunların bu qədər asan, əlçatan olması təhlükənin daha da artmasına yol açır. Diqqətli olaq, övladlarımızı haram yollardan çəkindirək.

# SOCAR-ın builki büdcəsi təsdiq olundu

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) 2025-ci il üzrə büdcəsi təsdiq olunub.

Bu barədə SOCAR-dan məlumat verilib.

Belə ki, bu gün SOCAR-ın Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun sədrliyi ilə keçirilən iclasda SOCAR-ın prezidenti Rövşən Nəcəf və vitse-prezidenti Zaur Qurbanovun təqdimatı ilə şirkətin 2025-ci il üzrə büdcə layihəsi müzakirə edilib.

Bildirilib ki, müzakirələrdən sonra SOCAR-ın 2025-ci il üzrə büdcəsi təsdiq olunub. Qeyd olunub ki, iclasda, həmçinin gündəlikdə olan digər məsələlər müzakirə edilib.

# "İlk iş yerlərində gənclərimiz aşağı həcmli əməkhaqqı ilə çalışmağa məcbur olurlar"



"İlk iş yerlərində gənclərimiz bir çox vaxtlarda minimum əməkhaqqı və ya digər aşağı həcmli əməkhaqqı ilə çalışmağa məcbur olurlar. Amma əsas məsələ, əlbəttə ki, onların təcrübə və səriştə toplamasıdır".

Bunu fevralın 11-də əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Bakıda keçirilən İnsan İnkişafı Forumunda deyib.

O bildirib ki, hazırda Azərbaycan cəmiyyətinin təqribən 22%-i gənclərdən ibarətdir:

"Bu, təxminən 2,3 milyon nəfər deməkdir. Onlardan işçi qüvvəsini təqribən 1,3 milyon nəfər təşkil edir. Ötən il ərzində peşə hazırlığı istiqaməti üzrə təqribən 6 minə yaxın gəncimiz müxtəlif peşə kurslarına cəlb edilmişdir.

Eyni zamanda ötən il əmək yarmarkalarının sayı 150-yə çatmışdır. Peşə yönümlü xidmətlər təqribən 200 mini keçmişdir. Özünüməşğulluq proqramından təqribən 2500 gəncimiz faydalanmışdır.

# "Biznes mühitinin yaxşılaşdırılmasında insan kapitalı və amili çox önəmlidir"

Bunu fevralın 11-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev Bakıda keçirilən İnsan İnkişafı Forumunda deyib.



O bildirib ki, bu sahədə biznes mühiti və beynəlxalq reytinqlər üzrə konvensiya fəaliyyət göstərir: "Bu konvensiyada bilavasitə insan inkişafına aid üç xüsusi işçi qrupu fəaliyyətdədir ki, onların arasında mən insan kapitalı işçi qrupunu xüsusi vurğulamaq istərdim.

Gənclərin və uşaqların biznes təfəkkürünün formalaşdırılması, onların biznes düşüncə tərzinin yeni, müasir çağırışlar əsasında yaradılması bizim üçün ən aktual mövzulardandır".

Vüsal Şıxəliyev qeyd edib ki, cəmiyyətdə artıq müasir çağırışlar ondan ibarətdir ki, resursların tükənən xarakterli olması və eyni zamanda 4-cü sənaye inqilabının bu gün yaratdığı yeni sahələr, yeni iş prinsipləri insan kapitalına xüsusi diqqət yetirməyi vacib bilir:

"Bu sahədə daim öyrənmək, inkişaf etmək, yeni biliklər və bacarıqların öyrənilərək tətbiq edilməsi əsas prioritet kimi müəyyən edilməlidir.

İnsan kapitalının inkişafında özəl sektorun rolunun imkanları və resursları nədən ibarətdir? Bu sahədə dövlət qurumlarının təqdim etdiyi siyasət alətlərinin məhz özəl sektor tərəfindən praktikada tətbiqinin nailiyyətləri bizim üçün çox önəmlidir. Nəzərə alsaq ki, qanun və qaydaların biznesə tətbiqi və reallaşdırılmasında bilavasitə iştirakçılar biznes dairələridir. Bu baxımdan dövlət və biznes dialoqunda biz istərdik ki, əməkdaşlıq imkanları daha da genişləndirilsin".

***"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 5 əsas prioritetindən biri məhz rəqabətli insan kapitalına əsaslanır. Bu yöndə ölkəmizdə insan kapitalının inkişafına yaradılmış əlverişli mühit və bu sahədə infrastruktur proseslərindən tutmuş cəmiyyətin bütün maraqlı tərəflərinin prosesdə inkluziv iştirakı üçün imkanlar və ekosistemin yaradılmasına nail olunmuşdur"***, - deyə V.Şıxəliyev vurğulayıb.

# Azərbaycanda yeni büdcə mexanizminin tətbiqi mövzusunda təlimlərə başlanılır

Fevralın 11-də Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) və Dünya Bankının birgə təşkilatçılığı ilə "Azərbaycanda yeni büdcə mexanizminin tətbiqi və bu sahədə potensialın artırılması" mövzusunda təlimlərin açılış sessiyası keçirilib.

Maliyyə Nazirliyindən verilən xəbərə görə, tədbirdə Azərbaycanda Ortamüddətli xərclər çərçivəsinin (OMXÇ) tətbiqi, proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatları çərçivəsində görülmüş işlər, bu sahədə beynəlxalq əməkdaşlıq, islahatların gələcəyi ilə bağlı atılacaq növbəti addımlar, habelə yeni büdcə mexanizminin tətbiqi üçün potensialın artırılması məqsədilə təşkil ediləcək təlimlər barədə çıxış və təqdimatlar olub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Nazirlər Kabinetinin, Hesablama Palatasının, nazirliklərin, komitə və digər dövlət qurumlarının, habelə beynəlxalq maliyyə institutlarının nümayəndələrinin və müstəqil ekspertlərin iştirakı ilə tədbirdə çıxış edən Maliyyə Nazirliyinin Ortamüddətli xərclər çərçivəsinin hazırlanması mərkəzinin direktoru İlham Kərimov islahatların tarixçəsi, görülmüş işlər barədə məlumat verib, nəticəəsaslı büdcə mexanizminin fiskal tənzimləmə aləti kimi əhəmiyyətini vurğulayıb.



İsveçrənin Regional Əməkdaşlıq Ofisinin rəhbərinin müavini Guy Bonvin və Dünya Bankının Azərbaycan üzrə Meneceri Stefanie Stallmeister isə öz çıxışlarında "Azərbaycanda Ortamüddətli Xərclər Çərçivəsi üzrə Potensialın Gücləndirilməsi" layihəsinin dövlət maliyyəsinin idarəolunmasına verdiyi töhfədən bəhs ediblər və növbəti dəstək tədbirlərinin bu islahatları daha da sürətləndirəcəyini qeyd ediblər.

# Стенограмма интервью Министра иностранных дел Беларуси М.Рыженкова МИЦ «Известия» (27 января 2025 г., г.Минск)

(начало в предыдущем номере)

**В этом году отмечается 80 лет Победы в Великой Отечественной войне. Планируют ли Россия и Беларусь проводить совместные мероприятия?**

У нас запланировано очень много мероприятий. Есть план действий, который мы согласовали, утвердили на Высшем госсовете буквально в декабре на уровне руководителей двух государств. У нас много мероприятий, как совместных, так и на территориях друг друга, в которых мы тоже будем принимать участие. Центральное – это парад в Москве, на котором будет наш расчет, – мы получили приглашение Президента принять в нем участие. Поезд памяти, очень хорошая идея, который ездит по территориям и Беларуси, и России с посещением городов – там молодежь принимает участие, которая несет в себе историческую память, наследие тех времен. У нас много запланированных событий в Брестской крепости, в городе Минске. В рамках СНГ у нас соответствующий план мероприятий тоже отработан. Мы много планируем провести мероприятий на площадке международных организаций, в ЮНЕСКО, в ООН. На территории стран СНГ и тех государств, которые разделяют наши ценности, будут проведены мероприятия также по возложению цветов к могилам неизвестных солдат, освободителей тех или иных государств. Хотя многие из этих государств уже забыли, кто их освобождал.

Мы будем проводить круглые столы, запланировано издание книг, посвященных исторической памяти. Кстати, я хочу сказать, что Постоянный Исполком Союзного государства во главе с Дмитрием Мезенцевым очень быстро в этом плане действует. У них очень много проектов, и я думаю, что он скоро нас порадует и новыми книгами, и новыми конференциями, и новыми круглыми столами на данную тематику.

**Беларусь официально стала партнером БРИКС. В каких инициативах по линии объединения сейчас участвует Минск? И как сотрудничество с БРИКС повлияет на Республику и на саму организацию?**

Мы очень рады быть частью такой серьезной организации с членством



таких мировых гигантов. Статус, который мы сейчас получили, позволяет нам широко действовать во всех измерениях деятельности организации. Это и дипломатическая политика, финансово-экономическая и, конечно, гуманитарная. Прежде всего, для нас это хорошая площадка для выработки позиций совместно с ключевыми политическими партнерами по основным пунктам международной повестки дня. Это хорошая возможность всегда иметь контакт с нашими партнерами на высшем и высоком уровне для развития двусторонних отношений.

Кроме того, это важная точка опоры в планах реализации торгово-экономических интересов. Например, совсем недавно у нас состоялись переговоры с банком, созданным в рамках БРИКС по реализации инвестпроектов. И мы очень надеемся на реализацию проектов в Беларуси либо с участием Беларуси за рубежом за счет этого банка.

Кроме того, важна культурно-гуманитарная направленность, которая способствует сближению народов стран-членов БРИКС.

Для нас это создание основы для дальнейшего развития отношений между государствами. Не надо народу объяснять, для чего это надо, когда они между собой на площадках, форумах, например, предпринимателей, молодежных, культурных, женских, будут коммуницировать и проникаться этими идеями, которые мы все разделяем. Раз мы в этой организации, значит, мы все разделяем идеи многополярности, разделяем идеи учета интересов и построения мира на основании взаимодоверия и уважения всех сторон.

Мы общим блоком выступаем по международным вопросам там, где голос Беларуси, возможно, и не был бы слышен, но в рамках такой организации он звучит. Ну и это позволяет нам подтягиваться к уровню таких государств, как Китай, Индия, Бразилия, Россия.

**По вашему мнению, есть ли шанс у Беларуси стать полноправным членом БРИКС?**

Шанс всегда есть. Но для того, чтобы быть полноправным членом, наверное, надо сначала доказать всем основным странам-участникам этой организации, во-первых, серьезность наших намерений и, во-вторых, доказать востребованность Беларуси для этой организации, т.е. насколько мы для них необходимы. И иметь какой-то уже кейс сотрудничества. Было бы уже совсем «по-гусарски» заявить о своем желании стать партнером, через буквально месяц, не разобравшись, заявить о своем желании стать полноправным членом. Да, стать членом БРИКС – это наша задача. Но мы должны и осмотреться в организации, и чтобы к нам привыкли другие, увидели, что у нас есть устойчивость в наших стремлениях, что у нас есть что предложить более детально, более серьезно. Вот тогда посмотрим.

**В последнее время обстановка на границе Беларуси и Украины неспокойная. Страны НАТО скапливают военную технику у границ Республики, то есть у границы Союзного государства. Какие меры, в связи с этим, намерен принимать Минск?**

Да, обстановка достаточно сложная. На самом деле, не ослабевают провокации с украинской стороны в отношении нашей границы. Вы правильно сказали, фиксируется очень много милитаризованных действий со стороны наших соседей вдоль границы: Польши, Литвы, Латвии. Только в прошлом году состоялось порядка 180 мероприятий, [которые имели] характер учений с применением в том числе тяжелых форм вооружений вдоль нашей границы, где приняли участие более 150 тыс. военнослужащих. Это громадные данные.

Польша вооружается до зубов, собирая лучшее со всего мира вооружение от США до Южной Кореи, причем наступательное вооружение. Литва, Латвия в кои-то веки готовы чуть ли не весь бюджет свой тратить на милитаризацию. Наш первый вопрос, и Президент его задает: зачем наступательное вооружение? Может быть, оборонительное, если вы чего-то там ждете, но наступательное-то зачем? Второй вопрос: зачем в таких объемах сотрясать здесь воздух? Третий: вам что, нечем заняться, некуда эти деньги направить у себя в странах? Например, на пенсии людей, на решение вопросов социально-экономического характера.

Призвали там сегодня до 6–7% от ВВП тратить на оборону – это превращается в 20–25%, а то и 30% от бюджета этих государств – то, что собирается налогами. Для чего? Непонятно, какие заборы строятся на границе. Как Президент часто говорит: **«для мигрантов – это не такое значительное препятствие»**.

На самом деле за всей этой милитаризацией, нагнетанием страстей прослеживается выгода прежде всего для военно-промышленного лобби. Это же миллиардные контракты.

Я где-то прочитал, что контракты и прибыль только американских компаний в прошлом году выросли порядка на 30%. За каждым процентом потенциально стоят человеческие жизни, разрушенная инфраструктура. Они получили доллары в карман, а кто-то получил трагедии в свои семьи. Вот к чему призывают сегодня эти страны вокруг нас.

Эта безумная милитаризация!

Опять-же, как Президент говорил, если это оружие покупают, то это как в спектакле: если есть на стене оружие, то оно выстрелит в конце акта. Если они так, то когда-то это где-то прорвется. И наша задача – дипломатическими способами, политическими, не поддаваясь на провокации, предотвратить это. Потому что мы-то понимаем, в отличие от тех, кто там за границей, что в таком противостоянии победителей не будет. Если Запад сегодня поставит Россию и Беларусь перед выбором цивилизационного существования, то просто другого варианта не останется.

Они почему-то это веками не могут понять. Потому что у них своя матрица. Они не допускают, что кто-то может применить такого рода силу. А силу такую может применить Россия. Мы вместе с Россией.

Вы знаете, что мы подписали договор с Российской Федерацией о совместных гарантиях безопасности, где в том числе прописано и применение ядерного оружия. Соответствующее оружие введено в Беларусь. Вы знаете, о договоренности разместить в Беларуси «Орешник». Это самое современное вооружение, которому нет аналогов даже за рубежом. Это наш ответ, но это наш ответ сдерживания, а не наступательный.

Я честно вам скажу, что с кем бы из своих западных коллег я ни беседовал, я всем говорю: перестаньте пугать ваш народ, что русские придут опять в Берлин или Париж, как было 80 или 200 лет назад. Нет такой цели, и быть ее не может. Сегодня есть одна цель – решить вопрос с денацификацией Украины и решением тех вопросов, которые стоят сегодня там у России.

Собственно говоря, никакого разговора о том, что, дойдя до неких границ, вся эта махина пойдет дальше, быть не может. Если только, вы не спровоцируете, образно говоря, своим прямым вмешательством в конфликт войсками НАТО.

Кто-то это слышит, кто-то – нет. Например, в Польше, Литве, Латвии слышать это не хотят. Их главный ресурс на сегодня – для получения денег, какого-то политического веса – нагнетание антироссийской риторики. То, что для Германии, Франции, Великобритании – проблема и большие расходы, ухудшение жизни людей, то эти страны – на этом просто зарабатывают. И как это не видит Евросоюз? – Ну, я уже не знаю.

**Насколько, по Вашему мнению, вероятна эскалация на границе?**

Чем больше людей, бряцающих оружием на границе по ту сторону, тем вероятность эскалации все больше и больше. Потому что кто его знает, какому-то солдату там, Яцеку или Мареку, со стороны Белостока что придет в голову. Соответствующие эпизоды уже были. Стреляют где-то на границе, и на стороне Украины то же самое. Ну люди же находятся в постоянном психологическом стрессе, в депрессии. И вопрос провокации, не только управляемой, но и случайной – он очень высок в таких условиях.

## Президент Ильхам Алиев утвердил соглашение о сотрудничестве между Азербайджаном и Россией в рамках коридора "Север-Юг"

Утверждено "Соглашение между правительством Азербайджанской Республики и правительством Российской Федерации о сотрудничестве в целях развития транзитных грузовых перевозок по международному транспортному коридору "Север-Юг". Как сообщает Trend, в связи с этим соответствующий указ подписал Президент Азербайджанской Республики Ильхам Алиев.

Согласно указу, после вступления соглашения в силу министерство цифрового развития и транспорта Азербайджанской Республики должно обеспечить реализацию его положений. Министерство иностранных дел Азербайджанской Республики должно направить в правительство Российской Федерации уведомление о выполнении внутригосударственных процедур, необходимых для вступления соглашения в силу.

## ЦБ Азербайджана о стратегии по обеспечению безопасности цифрового маната

Центральный банк предусматривает несколько стратегий обеспечения безопасности цифрового маната.

Об этом сообщили в ЦБ Азербайджана в ответ на запрос Trend.

«Одной из важных стратегий обеспечения безопасности цифрового маната является защита всех операций цифрового маната с помощью методов шифрования высокого уровня. Наряду с этим будут использоваться технологии двух-и трехэтапной аутентификации, биометрической аутентификации и электронной подписи.

Для обеспечения безопасности финансовых операций будут функционировать механизмы контроля и мониторинга в режиме реального времени. Для прогнозирования и своевременного предупреждения потенциальных угроз будут применены передовые технологические решения», - отметили в ЦБ. Предполагается создание независимой инфраструктуры безопасности от DDoS-атак и других кибер-рисков.

Будут сформированы системы финансовой безопасности для защиты цифровых кошельков пользователей и компенсации возможных потерь в результате кибератак.

Формирование эффективных механизмов защиты от кибератак и случаев мошенничества при внедрении цифровых валют является одним из главных приоритетов. Все эти меры будут осуществляться в соответствии с современными стандартами кибербезопасности с участием международных экспертов.

## SOCAR купила долю в израильском месторождении «Тамар»

Государственная нефтяная компания Азербайджана (SOCAR) подписала соглашение с Union Energy о приобретении 10% доли в израильском газовом месторождении «Тамар», говорится в сообщении SOCAR.

«В соответствии со своим планом развития, SOCAR продолжает стратегию расширения производственной базы за пределами страны. В этом контексте 31 января 2025 года компания подписала соглашение с Union Energy о приобретении 10-процентной доли в проекте «Тамар», который является одним из крупнейших газовых месторождений в Средиземноморском бассейне Израиля и имеет большое значение», - сказали в компании.

В SOCAR отметили, что вступление соглашения в силу возможно при выполнении определенных условий, включая получение соответствующих регуляторных и других разрешений.

## Утвержден бюджет SOCAR на 2025 год



Утвержден бюджет Азербайджанской государственной нефтяной компании (SOCAR) на 2025 год.

Об этом во вторник сообщили Trend в SOCAR.

Состоялось очередное заседание Наблюдательного совета SOCAR. На заседании под председательством председателя Наблюдательного совета, министра экономики Микаила Джаббарова был обсужден проект бюджета компании на 2025 год, представленный президентом SOCAR Ровшаном Наджафом и вице-президентом Зауром Гурбановым.

После обсуждения был утвержден бюджет SOCAR на 2025 год. На заседании также были обсуждены другие вопросы, включенные в повестку дня.

# “Nimesil”: faydası çoxdur, ya zərəri?

***Müəyyən səbəblərdən ağrılarla üzləşdiyimiz zaman apteklərdən ən çox aldığımız dərmanlardan biri də “Nimesil”dir. Azərbaycanda da populyarlıq qazanan bu dərmana həddindən artıq tələbat var.***

Dünya ölkələrinin və bir sıra səhiyyə təşkilatlarının bu dərman haqqında qəbul etdiyi qərarlarla tanış olduqda görürük ki, bir çox ölkələrdə bu dərman artıq qadağan edilib.

Redaksiyamıza ünvanlanan məktublardan görünür ki, insanlar bu preparatın qəbulundan ehtiyat edir, bu barədə ətraflı məlumat verməyimizi xahiş edirlər.

**“Nimesil” ilk növbədə ağrıkəsici və iltihabəleyhinə vasitədir və onun tərkibində aktiv maddə kimi nimesulid var, lakin artrit kimi xroniki xəstəliklər üçün tövsiyə edilmir. “Dərman həm uşaqlar, həm də böyüklər tərəfindən istifadə olunsa da, bir sıra təhlükəli yan təsirlərə malikdir.”**




“Nimesil” mədə selikli qişasını zədələyə bilər. Yüksək toksiklik səviyyəsinə görə bu preparat ağciyərləri məhv edir. Mədənin selikli qişasına təsir edərək “Nimesil” yanma hissi, qıcqırma, bəzi hallarda isə hətta qanaxmalara səbəb olur.

Böyüklərə təsirindən danışarkən, ilk növbədə mədə və bağırsaq problemlərini qeyd etmək lazımdır. “Nimesil” həzm sistemində ciddi pozğunluqlara səbəb ola bilər. Bu, iltihablar, yaralar və qanaxmalarla müşayiət olunur. Bundan əlavə, uzun müddət istifadəsi ürək-damar sisteminə təsir edərək hipertoniya, ürək çatışmazlığı və damar problemləri riskini artırır.

“Nimesil” həmçinin, qaraciyər və böyrək funksiyalarına mənfi təsir göstərir: Bu dərmanın uzun müddət istifadəsi qaraciyər zədələnməsinə və böyrək problemlərinə daha çox səbəb olur.

“Nimesil” allergik reaksiyalara səbəb ola bilər: bəzi insanlarda qaşınmadan tutmuş nadir hallarda anafilaktik şoka qədər müxtəlif allergik reaksiyalar müşahidə edilə bilər. Dərmanı qəbul edən bəzi xəstələrdə tənəffüs problemləri – təngnəfəslik və boğulma baş verə bilər.

Xüsusilə “Nimesil” uşaqlar üçün böyük təhlükə yaradır. Pediatriyada bu dərmanın istifadəsi ümumiyyətlə tövsiyə edilmir, çünki uşaqlarda müxtəlif ağırlaşmalara səbəb ola bilər. “Nimesil” qaraciyər funksiyalarına təsir edərək onun zədələnməsinə gətirib çıxara bilər. Bundan əlavə, uşaqlarda qarın ağrısı, qusma və həzm pozğunluqları yarana bilər. “Nimesil”in yan təsirləri uşaqlarda daha kəskin şəkildə özünü göstərir və xüsusilə iki yaşdan kiçik uşaqlar üçün daha təhlükəlidir.

Uşaqlarda “Nimesil” qəbul edildikdən sonra başgicəllənmə, yuxululuq və digər sinir sistemi pozğunluqları baş verə bilər. Böyüklər bu dərmanı yalnız həkim təyinatı ilə və qısa müddət ərzində qəbul etməlidirlər. Uşaqlara isə “Nimesil” vermək tövsiyə olunmur, xüsusilə də həkim tərəfindən təyin olunmayıbsa. Dərmanı qəbul edərkən hər hansı mənfi təsirlər müşahidə olunarsa, dərhal həkimə müraciət etmək vacibdir. Xüsusilə qaraciyər və böyrək xəstəlikləri olan insanlar ehtiyatlı olmalıdırlar. “Nimesil” qəbul etməzdən əvvəl mütləq həkimlə məsləhətləşin, çünki dərmanların istifadəsi sizin sağlamlıq vəziyyətinizə görə dəyişə bilər.

Son dövrlərdə bir çox ölkələrdə bu dərman vasitəsinin faydası deyil, daha çox zərərləri müzakirə olunur. Məsələn, Beynəlxalq Dərman Bülletenləri Cəmiyyətinin (ISDB) bəyanatında bildirilir ki, “Nimesil” və onun bütün növləri qaraciyərə vurduğu ciddi zərərə görə bütün dünyada ləğv edilməlidir.

**Bu dərman vasitəsi ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya, Yeni Zelandiya, Yaponiya kimi ölkələrdə istifadəyə yararsız hesab olunur.**

Ağrıkəsicinin qaraciyərdə yol aça biləcəyi risklər Avropa Dərman Agentliyi tərəfindən də təsdiqlənib. Finlandiya, İspaniya, İrlandiya və Sinqapur qaraciyərin ciddi zədələnməsi ilə bağlı xəbərlərdən sonra nimesulid tərkibli dərmanları bazardan çıxarıblar.

Azərbaycanda əczaçıların sözlərinə görə, hazırda “nimesil” ən çox alınan dərman preparatlarındandır, Qeyri-steroid iltihab əleyhinə bu preparat Almaniya istehsalıdır.

Ölkəmizdə “Nimesil”in qadağan ediləcəyi barədə yayılan iddialarla əlaqədar Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən (AEM) bildirilib ki, nimesulid tərkibli dərman vasitələrinin qadağan edilməsi və ya məhdudlaşdırılması ilə bağlı qərarlar milli tənzimləmə yanaşmalarından asılıdır:

“Belə ki, bir qrup ölkələrdə riskləri olan preparatların preventiv şəkildə bazardan çıxarılmasına üstünlük verilir (ABŞ, Avstraliya və s.). Digər bir qrup ölkələrdə, əgər risklər idarə edilə bilirsə yanaşma olaraq daha çox məhdudiyyət strategiyası tətbiq olunur. Bu qrup ölkələrə Türkiyə Respublikası, Rusiya Federasiyası, Ukrayna, Belarusiya, və sairə aid etmək olar. Bəzi ölkələrdə nimesulidin istifadəsi məhdudlaşdırılmış olsa və ya qadağan edilsə də, bir çox ölkələrdə (İtaliya, Türkiyə Respublikası, Polşa, Xorvatiya, Bolqarıstan, Macarıstan, Finlandiya, Yunanıstan, Meksika, Braziliya, Latviya, Litva, Malta, Kipr, Rusiya Federasiyası, Türkmənistan, Ukrayna, Özbəkistan, Belarusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və s.) istifadəsinə icazə verilib”.

Mərkəzdən verilən açıqlamada bldirilir ki, bu tərkibli dərman vasitələri ölkəmizdə, dərman vasitəsi ilə əlaqəli müvafiq tövsiyələrə riayət edilərək, nimesulidin faydasının potensial risklərindən üstün olduğu qərarı verildikdən sonra, istifadəsini nəzərə alaraq və bir sıra farmakonəzarət tədbirlərinin icrası şərti ilə qeydiyyata alınıb.

Mövcud hepatotoksiklik riskini idarə edə bilmək üçün nimesulid tərkibli dərman vasitələrinin içlik vərəqəsinin müvafiq bölmələri vasitəsilə tanış olmaq mümkündür.

Eyni zamanda onu da qeyd etmək istərdik ki, nimesulid tərkibli dərman vasitələri xroniki xəstəliklərin müalicəsində istifadə edilən dərman vasitələrindən deyil. Bu dərman vasitəsi birdəfəlik ağrını aradan qaldırmaq üçün istifadə olunur və məhdud istifadə göstərişləri ilə və qaraciyər toksikliyi riski nəzərə alınaraq qeydiyyatdan keçib.

# Ürək-damar xəstəlikləri cavanlaşır




***Son illərdə ürək xəstəliklərinin sayında ciddi şəkildə artım var. Miokard infarktının yaşı getdikcə cavanlaşır. Əvvəllər bu xəstəliklər 45-50 yaşda müşahidə olunurdusa, indi daha cavan yaşlarda, hətta 25 yaşlı şəxslərdə də miokard infarktı aşkarlanır. Bunun səbəbləri haqqında oxucularla fikirlərini bölüşmək üçün Mərkəzi Gömrük Hospitalının həkimi, invaziv kardioloq, yandal uzmanı Dr.İlqar Tahiroğluna müraciət etdik.***

**- İlqar həkim, əhali arasında yayılmış ürək-damar xəstəlikləri haqqında nə deyə bilərsiniz? Bu xəstəliklərin yayılmasının səbəbi nədir?**

- Bəli, son vaxtlar bütün dünyada ürək-damar xəstəlikləri cavanlaşıb. Hazırda təkcə bizim ölkədə deyil, bütün dünyada ürək-damar xəstəliklərinin artması müşahidə olunur. Gənc yaşlarda infarkt aşkarlandıqda həkimlər ilk olaraq xəstənin narkotik qəbul etməsindən şübhələnirlər. Bir gəncdə genetik ürək xəstəliyi faktoru yoxdursa, o ən çox narkotik və enerji içkilərindən istifadə etdiyi üçün infarkt ola bilər. İndi bütün dünyada, o cümlədən də Azərbaycanda narkotik vasitələrin istifadəsi ilə əlaqədar olaraq miokard infarktında gəncləşmə müşahidə edilir.

Kardioloji xəstəliklərin bir çox növləri var. Son zamanlar ən çox yayılan ürəyin işemik xəstəliyi, anadangəlmə və ya qazanılmış ürək xəstəlikləri, ürək çatışmazlığı, miokard infarktı, aritmiyalardır.

Tək Mərkəzi Gömrük Hospitalında deyil, digər xəstəxanalarla da danışanda öyrənirik ki, həftədə ən azı bir nəfər gənc miokard infarktı ilə çox ağır vəziyyətdə gətirilir. Qan-damar sistemi xəstəliklərində dəyişdirə bilib-bilməyəcəyimiz bir sıra səbəblər var. Bir ailədə genetik olaraq ürək, qan-damar xəstəliyi varsa, onların övladlarında da bu xəstəliyin olma ehtimalı yüksəkdir. Təbii ki, belə şəxslər müəyyən yaşdan sonra mütləq şəkildə nəzarətdə qalmalıdır. Genetikasında risk olan şəxslərin müəyyən yaşdan sonra xolesterin səviyyəsi ölçülməlidir.

**- Daha çox hansı xəstəliklər ürək xəstəliklərinin əmələ gəlməsinə yol açır?**

- Şəkər, xolesterin yüksəkliyi, stress faktoru, zərərli vərdişlər, yüksək dozalı spirtli və enerji içkiləri, “fast food”-dan müntəzəm istifadə, qidalanmanın pozulması ürək xəstəliklərinin yaranmasına səbəb olur. Bundan başqa, son zamanlar bütün dünyada olduğu kimi, Azərbaycanda da oturaq həyat tərzi artıb. İnsanlar piyada deyil, maşınla getməyə daha çox üstünlük verirlər. Oturaq həyat və hərəkətsizlik artıq çəki və ürək, qan-damar sistemi xəstəliklərinin yaranmasına, artmasına səbəb olur. Bundan başqa, son zamanlar gənclər arasında qəlyandan istifadənin genişlənməsi də bu xəstəliklərin artmasına gətirib çıxarıb.

**- Ürək xəstəliklərinin başlanması əlamətləri hansılardır və nə vaxt bununla bağlı həkimə müraciət etmək lazımdır?**

- İlk növbədə, sinədə göynəmə, ağrının sol qola və kürəyə yayılması, boğulma, təngnəfəslik, ayaqlarda şişkinlik, hərəkət zamanı ağrının artması, baş ağrısı olduğu zaman mütləq həkimə müraciət olunmalıdır. Çünki bu, artıq ürək xəstəliklərinin göstəricisidir.

**- İlqar həkim, bəs bunun qarşısını necə almaq olar? Ümumiyyətlə, ürəyin sağlam olması üçün nələri tövsiyə edərdiniz?**

- Sonradan qazanılan ürək xəstələri zərərli vərdişlərdən, enerji içkilərindən uzaq durmalıdır, daha çox hərəkətdə olmalıdır, artıq çəki almamalıdır. Problem yeməyin miqdarı və aldığımız enerji ilə xərclədiyimiz enerjinin eyni olmamasındadır. Bu səbəbdən axşam yeməyindən sonra mütləq gəzməli və idman etməliyik. Lakin biz axşam yeməyindən sonra yatmağa üstünlük veririk. Belə olan halda bədəndə piy, yağ qatı yaranır. Bir müddət sonra isə bu problemlər özünü ürəkdə də göstərir.

Ürək, qan-damar sistemi xəstəlikləri olanlar mütləq şəkildə gün ərzində 45 dəqiqə orta sürətlə yürüş, oturaq həyatı olan şəxslər yüngül gimnastika hərəkətləri icra etməlidir. Həftədə ən azı üç gün, 50 dəqiqə olmaqla yürüşlər etmək lazımdır. Bundan başqa, duzlu və yağlı yeməklərdən uzaq olmaq, meyvə-tərəvəz qəbulunu daha da artırmaq məsləhətdir. Xəstənin problemi araşdırılmalıdır və sonradan pəhrizə başlanılmalıdır.



**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Mask “TikTok”ı almaqda maraqlı olmadığını bildirib




ABŞ hökumətinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri olan milyarder İlon Mask

“TikTok” sosial şəbəkəsini almaqda maraqlı olması ilə bağlı şayiələri təkzib edib.

“Report” xəbər verir ki, bu barədə “Bloomberg” agentliyi məlumat yayıb.

"Mən “TikTok”u almaq üçün heç bir təklif etməmişəm", - Mask Almaniyada “Axel Springer” media konqlomeratının rəhbəri Matthias Döpfner tərəfindən təşkil edilən konfransda çıxışında deyib. Bu, onun mümkün razılaşma ilə bağlı ilk şərhi idi.

“TikTok"a sahib olsaydım, nə edəcəyimlə bağlı heç bir planım olmazdı”, - iş adamı vurğulayıb.

O bildirib ki, “TikTok”u əldə etməyə həvəsli deyil. Mask şirkətləri sıfırdan qurmağa üstünlük verdiyini qeyd edib.

İş adamı həmçinin bildirib ki, o, “TikTok”dan istifadə etmir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500